Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2015-ci il 8 iyul tarixli 262 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**3 nömrəli əlavə**

# Limanlarda gəmi agenti tərəfindən xidmətlərin göstərilməsi üçün sertifikatın forması, qüvvədə olma müddəti, verilmə və ləğv edilmə

# Q A Y D A S I

## 1. Ümumi müddəa

Bu Qayda "Dəniz limanları haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinə əsasən hazırlanmışdır və limanlarda gəmi agenti tərəfindən xidmətlərin göstərilməsi üçün sertifikatın (bundan sonra - sertifikat) formasını, qüvvədə olma müddətini, verilməsi və ləğv edilməsi qaydasını müəyyən edir.

## 2. Sertifikatın forması və qüvvədə olma müddəti

2.1. Limanlarda gəmi agenti tərəfindən xidmətlərin göstərilməsi üçün sertifikat bu Qaydanın əlavəsində göstərilən formada hazırlanır və Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası (bundan sonra - Administrasiya) tərəfindən 5 il müddətinə verilir.

2.2. Sertifikatda aşağıdakılar öz əksini tapmalıdır:

2.2.1. sertifikatı verən orqanın adı;

2.2.2. sertifikatın adı;

2.2.3. sertifikatın nömrəsi;

2.2.4. gəmi agentinə dair məlumatlar (hüquqi şəxsin adı və hüquqi ünvanı, fiziki şəxsin soyadı, adı, atasının adı və ünvanı);

2.2.5. həyata keçirilməsinə sertifikat verilən xidmətin növü;

2.2.6. sertifikatın verildiyi yer;

2.2.7. sertifikatın verildiyi tarix;

2.2.8. sertifikatın etibarlılıq müddəti;

2.2.9. imza və möhür yeri.

2.3. Sertifikatın yuxarı hissəsində Administrasiyanın tam adı və Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri əks olunur.

2.4. Sertifikatın üzərindəki məlumatlar Azərbaycan və ingilis dillərində göstərilir.

2.5. Sertifikatın üzərində Administrasiyanın gerbinin təsvirindən istifadə olunur.

2.6. Sertifikat onu verən orqanın rəhbəri və ya onun tapşırığı ilə müavini tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

## 3. Sertifikatın verilməsi

3.1. Sertifikatın alınması üçün fiziki və ya hüquqi şəxslər (bundan sonra - ərizəçi) ərizə ilə Administrasiyaya müraciət etməlidirlər. Ərizədə aşağıdakı məlumatlar göstərilir:

3.1.1. ərizəçinin müraciət etdiyi orqanın adı;

3.1.2. ərizəçi fiziki şəxs olduqda, onun soyadı, adı, atasının adı, ünvanı və şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verildiyi tarix haqqında məlumatlar;

3.1.3. ərizə şəxsin nümayəndəsi tərəfindən imzalandıqda, nümayəndənin soyadı, adı, atasının adı, ünvanı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verildiyi tarix, habelə vəkalətnamə haqqında məlumatlar;

3.1.4. ərizə hüquqi şəxsin adından verildikdə, onun adı, olduğu yer və qeydiyyat nömrəsi;

3.1.5. ərizəyə əlavə edilmiş sənədlərin siyahısı;

3.1.6. ərizəçinin elektron poçt ünvanı (varsa).

3.2. Ərizə onun tərtib edildiyi tarix göstərilməklə, ərizəçi (və ya nümayəndəsi) tərəfindən imzalanır.

3.3. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

3.3.1. ərizəçi fiziki şəxs olduqda:

1. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin surəti (müvafiq olaraq Azərbaycan Respublikasında əcnəbinin, yaxud vətəndaşlığı olmayan şəxsin müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi);

2. bu sahədə ixtisaslaşmış gəmi agentinin rəhbərliyi altında ən azı 3 (üç) il əmək stajının olmasını təsdiq edən sənəd;

3. Administrasiya tərəfindən təsdiq edilmiş proqram üzrə gəmi agenti kurslarını bitirməsinə dair sənədin surəti;

4. sağlamlıq haqqında tibbi arayış;

5. əmək kitabçasının surəti;

6. vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda);

3.3.2. ərizə hüquqi şəxsin adından verildikdə:

1. hüquqi şəxsin dövlət reyestrindən çıxarışın surəti;

2. gəmi agenti xidmətlərinin göstərilməsinə birbaşa cəlb edilmiş əməkdaşlarının gəmi agentinin rəhbərliyi altında ən azı 3 (üç) il əmək stajlarının olmasına və Administrasiya tərəfindən təsdiq edilmiş proqram üzrə gəmi agenti kurslarını bitirmələrinə dair sənədlərinin surətləri.

3.4. Ərizəçidən bu Qaydanın 3.1-ci və 3.3-cü bəndlərində nəzərdə tutulanlardan əlavə hər hansı digər sənəd və məlumat tələb edilə bilməz və həmin sənədlər ərizəçi tərəfindən bilavasitə və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron qaydada təqdim edilir.

3.5. Bu Qaydanın 3.3-cü bəndində göstərilən sənədlər bilavasitə təqdim edildikdə, sənədlərin surətləri onların əsli ilə birgə təqdim edilir və tutuşdurma aparıldıqdan sonra sənədlərin əsli onları təqdim etmiş şəxsə qaytarılır. Ərizəçi sertifikatın alınması üçün poçt rabitəsi və ya elektron qaydada müraciət etdikdə, bu Qaydanın 3.3-cü bəndində göstərilən sənədlərin notarial qaydada təsdiq olunmuş surətlərini ərizəyə əlavə edir.

3.6. Sertifikatın verilməsi üçün bu Qaydanın 3.1-ci və 3.3-cü bəndlərində göstərilən sənədlərin siyahısı Administrasiyanın rəsmi internet səhifəsində yerləşdirilir.

3.7. Ərizəçinin sertifikatın verilməsinə dair ərizəsinə Administrasiya tərəfindən ərizənin daxil olduğu gündən sonra 5 (beş) iş günündən gec olmayaraq baxılır və müvafiq qərar qəbul edilir.

3.8. Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, bu barədə ərizəçiyə 2 (iki) iş günündən gec olmayaraq yazılı məlumat verilir. Bu zaman sertifikatın verilməsi ilə bağlı müddətin axımı dayandırılır və ərizəçi tərəfindən həmin çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müddətin axımı bərpa olunur. Çatışmazlıqlar aradan qaldırıldıqda və imtina üçün bu Qaydanın 3.10-cu bəndində nəzərdə tutulan hallar aşkar edilmədikdə, ərizəyə 3 (üç) iş günü müddətində baxılır və müvafiq qərar qəbul edilir.

3.9. Qərar imzalandığı tarixdən 2 (iki) iş günü müddətində ərizəçiyə bilavasitə təqdim olunur, yaxud poçt vasitəsilə və ya skan edilmiş formada onun elektron ünvanına göndərilir.

3.10. Bu Qaydanın 3.1-ci və 3.3-cü bəndlərinə əsasən təqdim edilən sənədlərdə düzgün olmayan məlumatlar olduqda, sertifikatın verilməsindən imtina edilir və imtinanın səbəbləri göstərilməklə, ərizəçiyə bu barədə 5 (beş) iş günü müddətində yazılı məlumat verilir.

3.11. Ərizəçi sertifikatın verilməsindən imtina edilməsi barədə qərarla razılaşmadıqda, həmin qərardan inzibati və (və ya) məhkəmə qaydasında şikayət vermək hüququna malikdir.

3.12. Sertifikatın verilməsi barədə qərarı almış ərizəçi aşağıdakı sənədləri Administrasiyaya təqdim etməlidir:

3.12.1. gəmi agenti xidmətlərinin göstərilməsi ilə əlaqədar məsuliyyətin sığorta edilməsinə dair müqavilənin surəti;

3.12.2. sertifikatın alınmasına görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd.

3.13. Sertifikat bu Qaydanın 3.12-ci bəndində qeyd olunan sənədlərin Administrasiyaya təqdim edildiyi tarixdən sonra 3 (üç) iş günü müddətində ərizəçiyə təhvil verilir.

3.14. Sertifikat yararsız hala düşərsə və ya itirilərsə, gəmi agentinə sertifikatın dublikatı verilir. Dublikatın verilməsinə görə dövlət rüsumu alınmır.

3.15. Sertifikatın uçotu Administrasiyanın müəyyən etdiyi məsul şəxs tərəfindən "Gəmi agentləri üçün Sertifikatların uçotu jurnalı"nda (bundan sonra - uçot jurnalı) aparılır. Uçot jurnalı qaytanlanır, nömrələnir, jurnalın sonuncu səhifəsi (qaytanın düyünləndiyi hissə) Administrasiyanın rəhbəri və ya onun müavini tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

3.16. Administrasiyanın texniki vasitələrdən istifadə etməklə verilmiş sertifikatların elektron qaydada uçotunu aparmaq hüququ vardır.

3.17. Sertifikatın verilməsi və verilməsindən imtina edilməsi barədə qərarlar haqqında (o cümlədən, qəbul olunmuş qərarların təqdim edilməsinə dair) məlumatlar uçot jurnalında qeyd olunur.

3.18. Ərizəçi sertifikatı Administrasiyadan təhvil götürdükdən sonra bu barədə uçot jurnalında müvafiq qeydlər edilir.

3.19. Administrasiya sertifikat almış və sertifikatı ləğv olunmuş gəmi agentləri barədə məlumatları özünün rəsmi internet saytında yerləşdirir və həmin məlumatların mütəmadi olaraq yenilənməsini təmin edir.

## 4. Sertifikatın fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi

4.1. Administrasiya aşağıdakı hallarda sertifikatın müddətini dayandırır:

4.1.1. gəmi agenti öz vəzifələrini, "Dəniz limanları haqqında" Azərbaycan Respublikası Qanununun, "Gəmi agenti haqqında Əsasnamə"nin və bu Qaydanın tələblərini və şərtlərini mütəmadi yerinə yetirmədikdə, üç ay müddətinə;

4.1.2. sertifikat sahibinin yazılı müraciəti əsasında, müraciətdə göstərilən müddətdə.

4.2. Bu Qaydanın 3-cü hissəsinə uyğun olaraq verilmiş sertifikat Administrasiya tərəfindən aşağıdakı hallarda ləğv edilir:

4.2.1. hüquqi şəxs ləğv edildikdə və fiziki şəxs vəfat etdikdə, habelə ölmüş elan edilməsi və ya itkin düşmüş hesab olunması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

4.2.2. şəxsin fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətli olması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

4.2.3. sertifikat verilməsi üçün Administrasiyaya təqdim edilən sənədlərdə yanlış məlumat aşkar edildikdə;

4.2.4. gəmi agentinin "Gəmi agenti haqqında Əsasnamə"nin və bu Qaydanın tələblərinə uyğun gəlmədiyi aşkar edildikdə;

4.2.5. sertifikatın etibarlılıq müddəti bitdikdə;

4.2.6. gəmi agenti tərəfindən bu Qaydanın 4.1.1-ci yarımbəndi ilə müəyyən edilmiş müddətdə sertifikatın dayandırılmasına əsas olan hallar aradan qaldırılmadıqda;

4.2.7. sertifikatın sahibinin yazılı müraciəti əsasında;

4.2.8. məhkəmənin qanuni qüvvəyə minmiş müvafiq qərarı olduqda.

4.3. Bu Qaydanın 4.2-ci bəndində göstərilən hallarda Administrasiya tərəfindən sertifikatın fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi barədə qərar qəbul edilir və bu barədə uçot jurnalında müvafiq qeyd aparılır.

4.4. Sertifikatın fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi barədə qərar Administrasiya tərəfindən 3 (üç) iş günü müddətində gəmi agentinə göndərilir.

4.5. Sertifikatın ləğv edilməsi barədə qərarı almış gəmi agenti sertifikatın əslini Administrasiyaya qaytarmalıdır. Sertifikatın əsli gəmi agenti tərəfindən Administrasiyaya qaytarılmadıqda, Administrasiyanın rəsmi internet saytında sertifikatın ləğv edilməsi barədə məlumat yerləşdirildiyi vaxtdan sertifikat etibarsız hesab edilir.

4.6. Administrasiya sertifikatın fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi barədə qərarın surətinin gəmi sahibinə, fraxt edənə və ya gəmini digər qanuni əsaslarla istismar edən şəxsə göndərilməsini təmin edir.

4.7. Gəmi agenti sertifikatın fəaliyyətinin dayandırılması və ya ləğv edilməsi barədə qərarla razılaşmadıqda, həmin qərardan inzibati və (və ya) məhkəmə qaydasında şikayət vermək hüququna malikdir.

**Qeyd.** Bu Qaydada dəyişikliklər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırıldıqdan sonra edilə bilər.

“Limanlarda gəmi agenti tərəfindən xidmətlərin göstərilməsi üçün sertifikatın forması, qüvvədə olma müddəti, verilmə və ləğv **edilmə Qaydası”na əlavə**

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASI**

**THE STATE MARITIME ADMINISTRATION OF THE REPUBLIC OF AZERBAIJAN**

# GƏMİ AGENTİ XİDMƏTLƏRİNİN GÖSTƏRİLMƏSİ ÜÇÜN SERTİFİKAT

CERTIFICATE FOR SHIP AGENT SERVICES

№ ______________

Bu Sertifikat “Dəniz limanları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası tərəfindən verilmişdir.
Issued in accordance with the requirements of the “Law on Sea Ports” of the Republic of Azerbaijan by the State Maritime Administration of the Republic of Azerbaijan.

Gəmi agentinin adı və ünvanı __________________________________________________

Name and address of the ship agent ____________________________________________

Bu Sertifikat Azərbaycan Respublikasının limanlarında gəmi agenti xidmətlərinin göstərilməsi üçün verilir.
This Certificate gives right to carry out ship agent services in all Ports of the Republic of Azerbaijan.

Bu Sertifikat ______________________ tarixinədək etibarlıdır.
This Certificate is valid until _______________________

Verildiyi yer _____________________ Verildiyi tarix______________________
İssued at Date of issue

________________________________________________________

(**Sertifikatı təsdiq edən məsul şəxsin imzası/**
Signature of the duly authorized official issuing the Certificate)

**M.Y**
**Seal**